Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Azad edilən ərazilərdə görülən işlər özəl sektorun inkişafına yeni təkan verir...

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

**Azərbaycanın iqtisadi tərəqqisində özəl sektorun həlledici rol oynaması və bunun dövlətin xüsusi maraq dairəsində yer alması heç kimə sirr deyil. İndi dövlət üçün başlıca prioritetlərdən biri işğaldan azad edilən ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyasına da özəl sektorun öz töhfəsini verməsidir. Bu istiqamətdə dövlət tərəfindən bütün lazımı şərait yaradılır.**

Azad edilən ərazilərdə dayanıqlı inkişafının təmin olunması, burada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlərdə özıl sektor getdikcə daha yaxından iştirak edir.

### Azərbaycan iqtisadiyyatı kəmiyyət və keyfiyyət cəhətdən yeni mərhələyə qədəm qoyur…

Heç şübhəsiz, azad edilən ərazilərdə həyata keçirilən fəaliyyətdə özəl sektorun rolunun artması Azərbaycanda sahibkarlığın daha dinamik inkişafına ciddi təkan verəcək. Çünki həmin ərazilərdə hələ çox iş görülməlidir. Dövlətin də yanaşması bundan ibarətdir ki, həmin ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət?özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir. Elə prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında imzaladığı sərəncam da buna xidmət edir.

Məlumdur ki, azad edilmiş ərazilərin iqtisadi resursları çox böyükdür. Bundan səmərəli yararlanmaq üçün ilkin olaraq müvafiq infrastrukturun yaradılması vacib şərtdir. Ermənistan işğalına son qoyulduqdan sonra Azərbaycan dövləti məhz bu istiqamətdə kompleks tədbirlər və əməli fəlaiyyət həyata keçirir. Sözügedən ərzilərdə çoxsaylı xarici şirkətlərin də iştirakı ilə yaradılan infrastruktur təkcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun deyil, bütünlükdə regionun inkişafında əsas amilə çevriləcək. Təbii ki, bundan ən böyük fayda götürən ölkə Azərbaycan olacaq. Xüsusən də azad edilmiş ərazilərdəki resursların milli iqtisadiyyata inteqrasiyası iqtisadi strukturun təkmilləşdirilməsində və onun enerji resurslarından asılılığının azaldılmasında əsaslı rol oynayacaq. Azad edilmiş ərazilərin əsas inkişaf ünvanlarından birinə çevrilməsilə postmüharibə dövründə Azərbaycanın iqtisadiyyatının kəmiyyət və keyfiyyət cəhətdən yeni mərhələyə qədəm qoymasını şərtləndirir. Eyni zamanda bu amil Azərbaycana investisiya axınını daha da sürətləndirir. Çünki, ərazi bütövlüyünü bərpa etməklə Azərbaycan artıq ərazisində konflikt, qarşıdurma riskini aradan qaldırıb. Bu da ölkəyə sərmayə axınını şərtləndirən əsas faktorlardan hesab edilir. Nəzərə alınmalıdır ki, azad edilmiş ərazilərimizin böyük iqtisadi potensialı və təbii ehtiyatları var. Bu mənada həmin ərazilər həm yerli və xarici investorlar üçün olduqca cəlbedicidir. Dövlətin azad olunmuş ərazilərdə vergi, gömrük və digər güzəştlər tətbiq edilməsi, kreditlərin subsidiyalaşdırılması istiqamətində addımları bu cəlbediciliyi daha da artırır. Təbii ki, bu da həmin yerlərdə fəaliyyət göstərmək istəyən sahibkarların say artımına müsbət təsir götərir. Yeni daxili və xarici investisiyaların cəlbi bu yerlərdə əhalinin məşğulluğunun təmin edilməsi baxımından müstəsna önəmə malikdir. Artıq 900-dən çox investor Azərbaycan hökumətinə işğaldan azad edilmiş ərazilərdə işləmək üçün müraciət edib. Onların hər



üçündən biri xarici sərmayədardır. Yerli və xarici investisiya axınının çoxalması, azad edilmiş ərazilərdə müasir və "ağıllı" texnologiyaların tətbiqi rəqabətqabiliyyətli milli iqtisadiyyatda dinamik inkişafa yeni təkan verəcək. İlkin hesablamalara əsasən, bunlar nəticəsində birinci mərhələdə ölkə iqtisadiyyatı 6-7 faiz, inteqrasiya proseslərinin əsas fazası başa çatdıqdan sonra isə 10-11 faiz böyüyəcək. Bu böyümə əsas etibarı ilə neft-qaz sektorundan kənar sahələrdə qeydə alınacaq.

### Sahibkarlar üçün yaradılan yüksək şərait, böyük iqtisadi potensial…

İlkin hesablamalara görə, işğaldan azad olunmuş ərazilər 2030-cu ilədək Azərbaycanın qeyri-neft sektorunun 10 faizə qədərini təmin edə bilər. Bu yerlərdə ilk olaraq, dağ-mədən sənayesinin inkişafı prioritetdir. Çünki həmin ərazilərdə 167 faydalı qazıntı ehtiyatı var. Hazırda həmin ehtiyatların həm inventarizasiyası, həm kəşfiyyatı, həm hasilatı ilə bağlı işlər aparılır. Qarabağda çoxsaylı filiz, qeyri-filiz, inşaat və tikinti materialları, içməli, mineral-termal su yataq və təzahürləri aşkarlanıb. Həmin yataqlarda ölkənin daxili istehlak bazarını təmin edəcək və hətta xarici bazarlara çıxarılacaq böyük həcmli müxtəlif növ mineral-xammal ehtiyatları mövcuddur.

Hesab olunur i, bölgədə aparılacaq geoloji-kəşfiyyat işləri nəticəsində yeni faydalı qazıntı yataqları aşkar ediləcək ki, bu da sözügedən müstəvidə potensialı bir qədər də artıracaq. Bu fonda hökumət hesab edir ki, sahibkarların aparılan islahatlara dəstəyi və müəyyən edilmiş qanunvericiliyə uyğun fəaliyyəti çox önəmlidir. Bu, azad edilmiş ərazilərdə sahibkarların fəaliyyəti üçün də olduqca önəmlidir.

Eləcə də bu yerlərdə 150 min hektar kənd təsərrüfatına yararlı torpaq sahələri mövcuddur. Nəqliyyat-logistika, turizm kimi sahələr də azad edilmiş ərazilərdə qeyri-neft sektorunun inkişafına təkan verəcək əsas istiqamətlərdir. Burada kartof, taxılçılıq, üzümçülük və digər bu kimi kənd təsərrüfatı sahələri, o cümlədən heyvandarlıq sahəsinin inkişaf etdirilməsi nəzərdə tutulub. İşğaldan azad olunmuş ərazilərdə turizm də aparıcı sahələrdən biri olacaq. Nəqliyyat-logistika sahəsində də böyük işlər görülür. Hazırda bu yerlərdə 700 kilometrdən artıq avtomobil yolu, 300 kilometrdən çox dəmir yolları ya çəkilir, ya layihələndirilir. 3 aeroportun tikintisi aparılır, artıq onlardan biri istifadəyə verilib. Bütün bunlar azad olunan ərazilərdə sahibkarlıq üçün olduqca əlverişli zəmindən xəbər verir. Dövlətin də yaratdığı şərait fonunda azad olunan ərazilərdə daha çox sayda sahibkarın fəaliyyət göstərcəyi proqnozlaşdırılır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**